# VALİDEYN DƏSTƏKLƏYİCİ MÜHİTİN YARADILMASINDA MÜHÜM AMİL KİMİ

**SEVİL YUSİFOVA**
*TPİ-nin Kurikulum Mərkəzinin*
*Humanitar fənlərin təlimi bölməsinin elmi işçisi*
**sevil_yusifova@mail.ru**



*Məqalədə dəstəkləyici mühitin əsas komponentlərindən biri olan valideynlə müəllim arasında əməkdaşlığın qurulması, valideynlərin təlim prosesinə yaxından cəlb olunması kimi aktual məsələlər əksini tapmışdır.*

Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsiplərindən biri dəstəkləyici mühitin yaradılmasıdır [1]. Dəstəkləyici mühitin yaradılması dedikdə pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraitinin yaradılması kimi mühüm anlayışların məcmusu nəzərdə tutulur. Dəstəkləyici mühitin komponentləri aşağıdakılardır [2]:

- *müasir tələblərə cavab verən sinif otaqları;*
- *peşəkarlığını yüksəldən müəllim;*
- *kömək etməyə hazır yoldaşlar;*
- *əlavə tədris vəsaitləri;*
- *əməkdaşlıq edən müəllim və valideyn.*

Sadalananlardan məlum olur ki, dəstəkləyici mühitin əsas canlı komponentləri müəllim–valideyn–şagird üçlüyüdür. Heç kəsə sirr deyil ki, müəllim və valideynin düzgün qurulmuş əməkdaşlığı uğura aparan yolu xeyli qısaldır. Müəllimlə valideynin sıx əməkdaşlığı şagirdin özünəinamını, məsuliyyətini daha da artırır. Hər bir müəllim şagirdlərində bu kimi gözəl keyfiyyətlərin formalaşmasını istəyir.

Yeni fənn kurikulumlarının tətbiqi valideynləri təlim prosesində fəal iştiraka, təhsildəki yeniliklərlə maraqlanmağa, onlara münasibət bildirməyə sövq edir, valideyn–məktəb əlaqələrinin güclənməsinə zəmin yaradır.

Bu gün təhsil sahəsində gedən islahatlar özü ilə xeyli yeniliklər gətirmişdir. Müəllimlərin və valideynlərin işinə yardım məqsədi ilə Milli Valideyn–Müəllim Assosiasiyası təsis edilmişdir. Məktəblərdə VMA-lar fəaliyyət göstərir. Bütün bunlara baxmayaraq, Kurikulum Mərkəzi tərəfindən son zamanlarda aparılan araşdırmalar onu göstərmişdir ki, məktəblə valideyn arasındakı əlaqələr o qədər də qənaətbəxş deyildir. Valideynlərin böyük əksəriyyəti ictimai tərbiyənin əhəmiyyəti haqqında səthi məlumata malikdir. Onlar sadəcə uşaqları məktəbə aparıb-gətirməklə öz vəzifələrini bitmiş hesab edirlər. Bu kimi hallar valideynlərin məktəb və təlim prosesi haqqında təsəvvürlərinin genişləndirilməsini, onların məsuliyyətli tərəfdaş kimi formalaşmasını diqqət mərkəzində saxlamağı tələb edir. Eyni zamanda məktəb və valideyn arasındakı əlaqəli işin məzmununun müasir təhsilin prinsipləri əsasında işlənməsini vacib məsələ kimi qarşıya qoyur [3].

Şagird gününün müəyyən hissəsini məktəbdə keçirir. Lakin onun gününün əsas hissəsi evdə, valideynlərinin və doğmalarının arasında keçir. Biz müəllimlər şagirdimizin dərsdənkənar vaxtını hansı formada keçirməsi ilə o qədər də maraqlanmırıq. Vəzifələrimizi məktəblə məhdudlaşdırdığımız üçün özümüzə xeyli çətinliklər yaratmış oluruq. Halbuki valideynlərlə sistemli iş şagirdlərimizin inkişafı üçün göstərdiyimiz səylərə çox böyük töhfə verər. Əgər valideyn evdə bizim məktəbdə başladığımız işi davam etdirsə, biz məqsədimizə daha tez nail olarıq. Bəs valideynlərlə iş necə qurulmalıdır? Müəllim–valideyn əməkdaşlığı necə formalaşmalıdır?

Valideynlərlə əməkdaşlıq etməyin bir neçə yolu var. Bunlardan birincisi valideynlərə vaxtaşırı rəsmi hesabatlar verməkdir. Rəsmi hesabatlar aşağıdakı formalarda verilə bilər. Məsələn:

■ Şagirdin qeyd kitabçası şagirdin birillik fəaliyyəti haqda məlumat almağa xidmət edir.

• *Kitabçada hər gün üçün bir səhifə yer ayrılır. Bu səhifədə həmin gün üçün dərs cədvəli və müəllimlərin bu dərslərdə şagirdin fəaliyyətini əks etdirən qeydləri yazılır.*

• *Kitabçanın sonunda müəyyən bir yer ayrılır. Burada şagirdin fənlər üzrə kiçik və böyük summativ qiymətləndirmə nəticələri əks olunur.*

■ Nailiyyət kitabçası şagirdin 11 illik fəaliyyəti və nailiyyətləri haqqında nəticə çıxarmağa imkan verir.

• *Bu kitabça hər bir təhsil pilləsi üçün və ya bütün ümumi təhsil üçün ola bilər.*

• *Bu kitabçada hər sinif üçün iki səhifə ayrılır. Burada hər sinifdə tədris olunan fənlərin siyahısı və bu fənlər üzrə böyük summativ qiymətləndirmə nəticələri əks olunur.*

• *Kitabçanın sonunda əlavə qeydlər üçün bir neçə səhifəlik yer ayrılır. Bu hissədə şagirdin ümumi təhsil müddətində əldə etdiyi xüsusi nailiyyətlər (olimpiada nəticələri, fəxri fərmanlar) və məktəb psixoloqunun şagird haqqında qeydləri (tədris müddətində şagirddə yaranmış psixoloji problemlər və onların aradan qaldırılması üçün görülən tədbirlər) əks olunur.*

• *Bu kitabça valideynə, müxtəlif fənn müəllimlərinə və məktəb rəhbərliyinə şagirdin bütün tədris müddətində fəaliyyətini izləməyə imkan verir.*

■ Sinif jurnalları müəllimin və şagirdin fəaliyyəti, qiymətləndirmə nəticələri haqqında məlumat almağa kömək edir. Jurnalda hər bir fənn üzrə aşağıdakılar öz əksini tapır:

- *kiçik və böyük summativ qiymətləndirmə nəticələri;*
- *keçilən mövzular;*
- *kiçik summativ qiymətləndirmə məqsədi ilə aparılan yoxlamaların mövzuları;*
- *jurnalın sonunda davamiyyəti əks etdirən səhifə.*

■ Elektron cədvəllər ayrı-ayrı məktəblərin göstəricilərinin, keyfiyyət dərəcələrinin və respublikadakı ümumi vəziyyətin təhlilinə şərait yaradır.

• *Bu cədvəllər vasitəsilə hər bir sinfin və ya məktəbin nəticələri haqqında həm müvafiq təşkilatlara, həm də ictimaiyyətə məlumat çatdırmaq mümkündür.*

• *Cədvəllərdə, əsasən, böyük summativ qiymətləndirmənin nəticələri əks olunur.*

• *Cədvəllər müxtəlif məzmunlu ola bilər:*
- *hər bir şagirdin hər bir fənn üzrə nəticələri;*
- *hər bir fənn üzrə siniflərin göstəriciləri;*
- *respublika üzrə məktəblərin mənimsəmə və keyfiyyət faizlərinin göstəriciləri.*

• *Belə cədvəllər həm də valideynlərin məktəb seçiminə yardım edir* [4].

■ Elektron poçt valideynlərlə birbaşa ünsiyyətin qurulmasına, övladlarının nailiyyətləri barədə məlumatlandırılmasına yardımçı olur.

Adları çəkilən rəsmi hesabatlarla yanaşı, valideynlərlə ildə ən azı 4 dəfə fərdi söh-

bət aparılmalı və aşağıdakı məsələlər birgə müzakirə olunmalıdır:

- *Şagirdin nizam-intizamı.*
- *Şagirdin dərslərə davamiyyəti.*
- *Şagirdin psixoloji və ünsiyyət problemləri, onların aradan qaldırılması yolları.*
- *Şagirdin təlim nailiyyətləri və geriləmələri və s.*

Valideynlərlə keçirilən görüşlərin qeydiyyatı, onlarla etdiyi söhbətin mövzuları, şagirdin ailə şəraiti haqqında qeydlər müəllim tərəfindən sistemləşdirilərək şagirdin portfoliosunda yerləşdirilməlidir.

Valideyn iclasları valideynlərlə üzbəüz görüşmək və problemləri birgə müzakirə etmək üçün əvəzolunmaz vasitədir. Bu, müəllimin daha məhsuldar işləməsinə şərait yaradır. Əgər şagirddə hər hansı bir sahədə geriləmə və ya şagirdin təlim nəticələrində çatışmayan məqamlar varsa, bunlar valideynlərin köməyi ilə aradan qaldırılır.

Xarici təcrübədə müəllim valideynlərin hər biri ilə təklikdə görüşüb müzakirələr aparır. Bizdə isə valideynlərlə görüş ildə bir neçə dəfə valideyn iclaslarında mümkün olur. Görüşün kollektiv şəraitdə keçirildiyini və hər bir valideynin övladı ilə bağlı məsələlərə həssaslıqla yanaşdığını nəzərə alaraq, müəllim problemlər barədə danışarkən diqqətli olmalı, sözləri ehtiyatla seçməlidir. Şagirdin uğursuzluğunun onun ata və ya anasına bütün valideynlər qarşısında deyilməsi valideyndə neqativ reaksiya və yaxud pərtlik doğura bilər. Övladının müsbət cəhətlərindən, nailiyyətlərindən valideynə elə danışmaq lazımdır ki, ardından deyiləcək qüsur bir qədər kölgədə qalsın. Məsələn: «Sizin övladınız çox istedadlı, bacarıqlı, özünə qarşı tələbkardır, məsuliyyətlidir, amma yoldaşları ilə əməkdaşlıq etməkdə bir az çətinlik çəkir». Biz bununla valideynə övladını hansı məcrada tərbiyələndirmək, onun dərsləri ilə necə məşğul olmaq barədə yol göstərmiş oluruq.

Kurikulum Mərkəzinin valideynlərlə keçirdiyi sorğuların nəticələri göstərir ki, onlar ev tapşırıqlarının icrasında uşaqlarına yardım edə bilmir, yeni dərsliklərdən, iş dəftərindən istifadədə çətinlik çəkirlər. Ona görə də müntəzəm olaraq valideynlərlə təhsil sahəsindəki yeniliklərlə bağlı müxtəlif formada maarifləndirmə işlərinin aparılması zəruridir. Valideyn öz övladına hansı sahədə, hansı formada kömək etməyin yolunu maariflənmə nəticəsində özü müəyyənləşdirəcək. İlkin istiqamət götürmək, uşaqları ilə fərdi məşğul olmaq üçün valideynlərə aşağıdakı tipli məsləhətlərin verilməsi məqsədəuyğundur.

Oxu və yazı bacarıqlarını inkişaf etdirmək üçün:

- ✔ *Mətni düzgün formada uşağa oxuyun.*
- ✔ *Gündəlik olaraq tapşırıqları yerinə yetirməsini yoxlayın.*
- ✔ *Övladınızın televizora və kompüter oyunlarına sərf etdiyi vaxtı mümkün qədər azaldın.*
- ✔ *Övladınızla birlikdə müzeylərə gedin.*
- ✔ *Övladınızla birlikdə kütləvi kitabxanalara üzv olun.*
- ✔ *Övladınızın diqqətini yaşına uyğun teatr tamaşalarına, musiqilərə cəlb edin.*

Söz ehtiyatını inkişaf etdirmək üçün:

- ✔ *Küçə və mağazalardakı işarələri göstərin və mənalarını başa salın.*
- ✔ *Lüğət ehtiyatını danışaraq zənginləşdirin:*

*- gördüyü adamlar və onların işi haqqında danışın;*

*- rənglər və əşyaların forması haqqında danışın;*

*- hər ikinizin bildiyi mahnını birgə oxuyun;*

*- getdiyi yerlər, gördüyü əşyalar və hadisələr haqqında fikrini soruşun.*

Nitqini inkişaf etdirmək üçün:

- ✔ *Hansısa mövzu ətrafında fikirlərini ifadə etmək şagirdin nitqinin inkişafı üçün çox əhəmiyyətlidir. Qoy övladınız aşağıdakı tipli mövzular ətrafında fikirlərini ifadə etsin:*

- *Mən ona görə xoşbəxtəm ki, ...........*
- *Mən onda hirslənirəm ki, ...............*
- *Həftə sonu mən istərdim ki, .............*
- *Mən elə yaşamaq istərdim ki, ..........*
- *Mənim ən böyük arzum budur ki,..........*

Beləliklə, valideynlər müəllimlərlə əməkdaşlığı nəticəsində tədris prosesi ilə daha yaxından tanış olacaq, bu da onlara öz borclarını və vəzifələrini dərk etməyə, övladlarını daha yaxından tanımağa, onların maraqlı cəhətlərini kəşf etməyə şərait yaradacaqdır. Bunun nəticəsində valideynlər özlərini dəstəkləyici mühitin əsas qüvvəsi kimi hiss edib, müəllimlərin ən yaxın tərəfdaşına çevriləcəklər.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). «Kurikulum» jurnalı, 2008, №1.

2. Əhmədov A. 2009/2010-cu tədris ilində I siniflərdə dərs deyəcək müəllimlər üçün yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun materialları. «Kurikulum» jurnalı, 2009, №2.

3. Abbasov Ə. Kurikulum Mərkəzində aparılmış araşdırmaların nəticələri. «Təhsil problemləri» qəzeti, 15-22 mart 2010-cu il.

4. Məktəbdaxili Qiymətləndirmə Qaydalarını hazırlayan işçi qrupunun təqdimatı. 5 avqust 2009-cu il.

**Yusifova S.E.**

Parent as Main Factor in the Creation of the Supporting Environment

*The article deals with the cooperation between main component of the supporting environment parent and teacher, closely involving of the parents to the teaching process.*

**Юсифова С.Э.**

Родитель как важный фактор в создании поддерживающей среды

*В статье нашли отражение такие актуальные вопросы, как сотрудничество между родителями и школой, которое является основным компонентом поддерживающей среды.*